**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ABİYEVA LEYLA RAUF qızı**

# XX ƏSRİN SONU – XXI ƏSRİN ƏVVƏLİNDƏ AZƏRBAYCANDA XALQ VƏ ELİTA: QARŞILIQLI TƏSİRİN DİNAMİKASI (SOSİAL-FƏLSƏFİ TƏHLİL)

İxtisas: 7207.01 – Sosial fəlsəfə

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun «Qloballaşma və informasiya cəmiyyətinin fəlsəfi problemləri» şöbəsində yerinə yetirilmişdir.

***Elmi rəhbər:*** **Rəna Rza qızı Mirzəzadə**
Fəlsəfə üzrə elmlər doktoru

***Rəsmi opponentlər:*** **Azər Xoşbəxt oğlu Mustafayev**
Fəlsəfə üzrə elmlər doktoru, professor

**Elşən Əsgər oğlu Bayramzadə**
Fəlsəfə üzrə fəlsəfə doktoru

***Aparıcı təşkilat:*** Bakı Slavyan Universiteti

Müdafiə "____" _____________2018-ci il saat___-da AMEA Fəlsəfə İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: *Bakı-Az 1143, Bakı şəhəri H.Cavid prospekti 115, AMEA Fəlsəfə İnstitutu*

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» _____________2018-ci ildə göndərilmişdir.

**D.01.115 Dissertasiya**
**Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru** **Sevinc Arif qızı Həsənova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövr dünyanın qloballaşması şəraitində xalq və elitanın qarşılıqlı münasibətlərindən doğan problemlər ictimai elmlərdə həm çox işlənilən, həm də hər zamana uyğun yenidən işlənilməsinə ehtiyac duyulan vacib problemlərdəndir. Xalq və elita bir-birinə yaxın və bir-birinə münasibətdə cəmiyyətin ən mühüm proseslərinə təsir edən anlayışlardır.

Müasir Azərbaycanın inkişaf dinamikasını müəyyənləşdirən bir sıra məsələlər kontekstində müstəqil respublikada siyasi, iqtisadi, sosial, hüquqi və s. sahələrdə baş verən transformasiya mənəvi və mədəni sferada da dəyişikliklərə rəvac verir. Bu dəyişikliklər isə müasir sosial-fəlsəfi, sosioloji tədqiqatlara da müəyyən dərəcədə yeni yanaşma metodologiyası, yeni baxış tərzi yaradır. Bu baxımdan təhlil etdiyimiz müasir dövrdə xalq və elita mövzusu da ictimai həyatın aktual problemlərindəndir.

Müasir ictimai-siyasi inkişaf dinamikasının kompleks təhlili elita-xalq münasibətlərinin qloballaşma tələblərinə uyğun öyrənilməsi və tədqiqini zəruri edir. Bəs elita və xalq nədir?

Elita intellektual, siyasi, mədəni, iqtisadi, psixoloji, hüquqi, mənəvi, təşkilatçılıq qabiliyyətləri ilə fərqlənən, sosial-siyasi, mədəni göstəriciləri ilə diqqəti cəlb edən, digərlərindən özünəməxsus məsuliyyət hissləri ilə seçilərək dövlətə – cəmiyyətə xidmət edən insanlar birliyi, toplusudur. Yəni, siyasi elitaların bir qismi reallığın transformasiyası üçün konkret addımlar atmağa qadirdir. Elitalar arasında azad rəqabət vardır, xalq arasından çıxan hər bir şəxs elitaya daxil ola bilər və ən əsası elitalar ümumi seçki hüququ əsasında xalq kütlələri tərəfindən nəzarət altında saxlanılırlar. Ona görə də xalq, elita məsələlərin müasir sosial fəlsəfi tədqiqatlarda tədqiqinə müraciət edilməsi, məhz məsələnin mahiyyətinin daha geniş şəkildə təhlilinə zərurət yaratmaqla mövzunun aktuallığını şərtləndirir.

Qeyd edək ki, müasirləşməyə can atan cəmiyyətlər və onların strukturunda mühüm yer tutan elitalar zamana daha tez uyğunlaşsalar da siyasi elitada müəyyən dərəcədə mühafizəkarlıq özünü daha bariz şəkildə göstərir. Qərbləşmək texnoloji, iqtisadi, siyasi cəhətdən irəliləyişdir. Lakin milli-etnik mentalitet-elita nə qədər mühafizəkarlıqdan uzaq olur olsun özünü həmişə göstərməkdə davam edir. Məhz bu kimi məsələlərin tədqiqatda araşdırılması mövzunun aktuallığının əsas göstəricilərindəndir.

Azərbaycan cəmiyyətində milli-siyasi elitanın formalaşma prosesi hələ keçmiş Sovet dövründə başlamışdır. Lakin milli siyasi elitanın tam formalaşması prosesi Azərbaycanın müstəqillik ideyasının gerçəkləşməsi şəraitində mümkün oldu. Keçmiş Sovet dövründə, xüsusən Ümummilli Lider Heydər Əliyevin birinci hakimiyyəti illərində görkəmli elm, mədəniyyət xadimləri, ideoloji sahədə rəhbər kadrlar yetişdi, onlar gələcək milli

elitanın sosial bazasını təşkil edirdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycan vətəndaşlarının milli birliyinə nail oldu. Onun sovet dövründə ən böyük tarixi xidmətlərindən biri Azərbaycan ərazisində yaşayan xalqlar arasında milli birliyə, siyasi hakimiyyət daxilində yekdilliyə, siyasi hakimiyyətlə xalq arasında vəhdətə nail olması idi. Bu yolda isə azərbaycançılıq ideologiyası əsas istiqamət oldu.

Dissertasiya işinin aktuallığını şərtləndirən cəhətlərdən biri XX əsrin 90-cı illərində azərbaycançı milli elitanın formalaşmasının Azərbaycan xalq hərəkatı ilə bağlı olması idi. Milli elitanın formalaşması prosesi milli azadlıq hərəkatının başlanması ilə paralel gedirdi. 1990-cı ilin 20 Yanvar hadisələri bu prosesi gücləndirdi. Elə bu bir sistemdən digər sistemə mürəkkəb keçid dövrü də demokratik dəyərləri, sərbəst bazar iqtisadiyyat, azadlıq və dövlət müstəqilliyi uğrunda mübarizə aparmağa qadir olan müasir milli-siyasi elitanın mənəvi və siyasi amalının formalaşmasının başlanğıcı oldu. Məhz işdə bu məsələlərin öyrənilməsi vacib əhəmiyyət daşıyır və təhlil olunur.

Güclü, modern dövlət, qanunun aliliyi, demokratiya, dəqiqlik və məsuliyyət yeni təfəkkür normalarını, multikulturalizm siyasəti ilə vəhdətdə islam həmrəyliyini tolerantlıqla və eyni zamanda müasirləşmə siyasətini ardıcıl dövlət siyasəti kimi əsas istiqamətləndirən Prezident İlham Əliyev milli elitanın yeni nəslinin – menecerlər və texnokrat siyasətçilərin formalaşmasına, idarəetmə və siyasətdə vətənpərvər, intellektual, dünyada gedən proseslərdən baş çıxaran, ağıllı, millətinə bağlı elitar təbəqənin inkişaf yolunu diqqət mərkəzində saxlayır. Bu mənada XXI əsr Azərbaycan elmində də xalq, elita haqqında məsələlər həm ictimai, həm də digər elmi dairələrdə tez-tez müzakirə obyekti olur. Elita problemi bu gün dünya birliyinə inteqrasiya edən müstəqil Azərbaycanda həm də yeni tipli insanın formalaşması baxımından yeni sahədir. Məhz bu kimi məsələlər tədqiqatda açıqlanır ki, bu da mövzunun aktuallığını şərtləndirən amillərdir.

Qeyd edək ki, elita anlayışının sosial-fəlsəfi mahiyyəti və onun yeni zaman çərçivəsində təşəkkülü problemləri haqqında Azərbaycan fəlsəfə elmində araşdırmalara bəzi əsərlərdə məqalələr qismində rast gəlirik və demək olar ki, bu məsələlər sosial-fəlsəfi aspektdə disertasiya mövzusu kimi araşdırılmamışdır. Bu baxımdan da mövzunun məhz sosial-fəlsəfi istiqamətdə də öyrənilməsinin aktuallığı vacib zəruri əhəmiyyətə malikdir.

**Problemin işlənmə dərəcəsi.** Xalq və elita haqqında keçmiş sovet dövründə yazılan əsərlər kifayət qədərdir. Belə ki, müəlliflər Konstantinov F., Butenko A., Bromley Y., Qaçev Q., Lebon Q., Qaman-Qolutvina O.B., Myasnikov O., Aşin Q., Şimov Ə., Fedoseev P., Solovyev A., Qelman V., Korqunyuk Y., Vasilyeva L.., Davıdov Y., Landberq F., Feldman D., Burlatskiy F., Menşikov S., Beqlov İ., Zamoşkin Y., İlin V., Daşdamirov

A., Krısko V.[1] Qoyulan problemə dair keçmiş sovet dövrü tədqiqatları öz genişliyi, qaldırılan məsələlərin müxtəlifliyi ilə diqqəti cəlb edir. Bu tədqiqatlar bir sıra hallarda elmi-texniki tərəqqi, hətta bəzən XX əsrin 80-90-cı illərində yenidən qurma sonra isə qloballaşma, qlobal problemlərin kəskinləşməsi ilə əlaqədar olmuşdur.

Keçmiş sovet məkanında xalq, elita məsələlərinin təhlili, cəmiyyətin sosial quruluşunun sovet konsepsiyasının bərqərarlığı, əsasən isə tarixin marksizm-leninizm ideologiyasına xas olan istiqamətdə öyrənilməsindən ibarət olurdu. Belə müəlliflərdən məs., Qərb müəllifləri Boulding K., Case W., Chinoy E., Cilcote R., Dahl R., Darendorf F., MDB məkanında Solovev A., Radaev V., Ponedelkov A., Fedoseev P. göstərmək olar[2].

---

[1] Константинов Ф.В. Роль личности и народных масс в истории: Стеногр. публ. лекции, прочитанной 9 декабря 1946 г. в Доме Союзов в Москве. М.: Правда, 1946, 40 с., Бутенко А. Народ как социологического категория // Вопросы философии, 1957, № 1, Бромлей Ю.В. Очерки теории этноса. М.: Наука, 1983, 411 с., Гачев Г.Д. национальные образы мира. М.: Сов. Писатель, 1988, 445 с., Лебон Г. Психология народов и масс. СПб: Макет, 320 с., Гаман-Голутвина О.В. Определение основных понятий экологии // Полис, 2000, № 3 (56), с. 97-103, Мясников О.Г. Смена правщих элит: «консолидация» или «вечная схватка»? // Полис, 1993, № 1 (13), с.52-60, Ашин Г.К. Миф об элите и «массовом обществе». М.: Международная отношения, 1966, 160 с., Шимов Я.В. Гражданское общество и правящая элита в переходный период: чешский вариант // Полис, 2001, № 3(62), с.149-159, Федосеев П.Н. Роль народных масс и личности в истории. М., 1956,64 с., Соловьев А.И. Культура власти Российской элиты? Искушение конституционализмом? // Полис, 1999, № 2(50), с.65-80, Гельман В. «Сообщество элит» и пределы демократизации: Нижегородская область // Полис, 1999, № 1(49), с.79-97, Коргунюк Ю.Г. Социальной облик политической элиты России 1990-х годов // Полис, 2001, № 2(61), с. 24-39, Васильева Л.Н. Модернизация и элита (синергетическая модель развития) // Социально-гуманитарное знания, 2001, № 4, с.281-297, Давыдов Ю.Н. Искусство и элита. М., 1966, Ландберг Ф. Богачи и сверхбогачи: О подлинных правителях США / Пер. с англ. Р.И.Столпера и др. М.: Прогресс, 1971, 683 с., Фельдман Д. Глобализация как вызов политической элита России // Власть, 2003, № 2, Бурлацкий Ф.М. Галкин А.А. Социология. Политика. М.: Международные отношения, 1974, 325 с., Меньшиков С.М. Миллионеры и менеджеры: Современная структура финансовой олигархии США. М.: Мысль, 1965, 455 с., Беглов И. США: собственность и власть. М.: Наука, 1971, 544 с., Замошкин Ю. Личность в современной Америке: опыт анализа цен-ностных и полит. ориентаций. М.: Мысль, 1980, 247 с., Ильин В.И. Буржуазный плюрализм: истоки и классовый смысл. М.: Мысль, 1983, 199 с., Дащдамиров А. Нация и личности. Б.: Элм, 1976, 226 с., Крысько В.Г. Этническая психология. М.: Академия, 2002, 320 с.

[2] Boulding K.E. Three Faces of Power. California: Sage Publications, 1989, 264p., Case W. Can the “Halfway House” Stand? Semidemocracy and Elite Theory in Three Southeast Asian Countries // Comparative politics, 1996, v.28, No.4, p. 437-464, Chinoy E. Society. An Introduction to Sociology. New York: Random House, 1961, Cilcote R.H. Theories of Comparative Politics. The Search for a Paradigm Reconsidered Second ed. Westviem press, 1994, Dahl R.A. Who Governs? Democracy and Power in an American City. New-Haven: Jale University Press, 1989, 351 p., Darendorf F. Class and class conflict in the industrial society. Stanford: Stanford University Press, 1959, 336 p.

Соловьев А.И. Культура власти Российской элиты? Искушение конституционализмом? // Полис, 1999, № 2(50), с.65-80, Радаев В.В., Шкаратан О.И. Социальная стратификация: Учебный пособия. М.: Аспект пресс, 1996, 320 с., Понеделков А.В. Политическая элита:

Müasir Azərbaycanda problemin ayrı-ayrı istiqamətləri Mehdiyev R., Həsənov Ə., Məmmədzadə İ., Mirzəzadə R., Tağıyev Ə., Bağırov Ş., Abbasov Ə., Əsədov A., Ulusu R., Rüstəmov Y., Müslümzadə D.[1] Ömərli V. və s.-nin əsərlərində milli elitanın inkişafı aspektlərinə, elitar nəzəriyyəsinə müstəqillik və sosiomədəni transformasiyalar kontekstində toxunulmuşdur.

Akademik R.Ə.Mehdiyev «Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq» adlı kitabında elitarizm nəzəriyyəsinin əsas məsələlərinə toxunmuş, tarixi təcrübəyə əsaslanaraq elitar nəzəriyyənin baniləri haqqında ətraflı məlumat vermişdir.[2] İşdə həmçinin İtaliyalı V. Paretonun, Q. Moskanin, Q.Lassuel, T.Day və s.-lərin fikirlərinə istinad olunmuş, xalq və elita məsələsi, məhz sosial-fəlsəfi aspekdə müqayisəli təhlildə öyrənilmişdir.

Görülən işlərin əhəmiyyətini kiçiltmədən qeyd etməliyik ki, müasir dövrdə də bu problemin tədqiqinə və təhlilinə hələ də ehtiyac duyulur. Bu baxımdan da təqdim olunan dissertasiya işində qeyd etdik ki, soial-fəlsəfi mətndə müasir elmi yanaşmalar aspektindən, həmin tələbatın öyrənilməsinə cəhd edilmişdir.

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi müasir dünya proseslərində xalq və elita probleminin qarşılıqlı təsir dinamikasını sosial-fəlsəfi kontekstdən araşdırmaqla, onların ümumi və fərqli cəhətlərini müasir zamana uyğun təhlil etməkdir. Elmi işin vəzifələrinə gəldikdə isə, bunlar:

– müasir dövrdə cəmiyyətdə əsas yer tutan xalq və onun strukturunda yeniləşən elitanın yerini müəyyənləşdirmək;

– xalq və elita anlayışlarının mənşəyi və sosial mahiyyətini tarixi və ictimai-siyasi aspektdə göstərmək;

– müasirləşmə zamanında şəxsiyyətin tipologiyası və elitar göstəricilərinin mahiyyətini açmaq;

– siyasi elita anlayışı və bütövlükdə elitalar nəzəriyyəsində onun sosiumda yeri, funksiyası və rolunu sosial-fəlsəfi yanaşmada açıqlamaq;

– demokratik Azərbaycan cəmiyyətində xalq və elita münasibətləri-

---

генезис и проблемы ее становления в России. Ростов – на – Дону, 1995, 206 с. Федосеев П.Н. Роль народных масс и личности в истории. М., 1956,64 с.

1 .Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001, Xəlilov S. Sivilizasiyalararası dialoq. Bakı, 2009, Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan nəşriyyatı, 2005, 752 s. Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı: Təknur, 2009, 180 s., Mirzəzadə R. Gender: cəmiyyət, insan hüququ, siyasət. Bakı: Adiloğlu, 2003, 420 s., Tağıyev Ə. Etnos nəzəriyyəsi // Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası. Bakı: «Səda» nəşriyyatı, 2006, s.8-21, Ömərli V. Hakimiyyət elitası və siyasi etik dəyər yönümü // Xəzər Xəbər, 2001, №108, s.36-38.

2 Mehdiyev R. Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: Varislik və innovasiyalılıq. «Azərbaycan» qəz., Bakı, 2008, 30 dekabr.

nin inkişafının fəlsəfəsini açmaq;

– müstəqil Azərbaycanda fəlsəfə elmində milli elitanın mənşəyi, müasir tarixi inkişaf mərhələləri və perspektivlərini araşdırmaq.

Tədqiqatın **obyektini c**əmiyyətin ümumi inkişafında həlledici rola malik xalq, elita və onlar arasında yaranan münasibətlər sistemi, **predmetini** bu münasibətlərdən doğan çoxtərəfli qarşılıqlı təsir dinamikasının müxtəlif mərhələ və nəticələrinin sosial-fəlsəfi təhlili təşkil edir.

**Dissertasiya işinin elmi yeniliyi.** Dissertasiya işində müasir Azərbaycan fəlsəfə elmində ilk dəfə olaraq xalq və elita problemlərinə sosial-fəlsəfi aspektdə diqqət yetirilir. Tədqiqat probleminin quruluşu və işlənilməsi, çıxarılan nəticə və tövsiyyələr müasir elmi yanaşmalar baxımından yenidir və müstəqil Azərbaycanda fəlsəfi ədəbiyyatda demək olar ki, ilk dissertasiya mövzusu kimi geniş təhlil olunur. İşin elmi yeniliyi aşağıdakılardır:

- İlk dəfə olaraq elita-kütlə (xalq) dixotomiyası müasir Azərbaycan fəlsəfə elmində dövriyyəyə gətirilmiş, sosial-fəlsəfi mətndə araşdırılmışdır;
- elita-şəxsiyyət dixotomiyası da nəzərdən keçirilmiş, mövcud elmi ədəbiyyat araşdırılaraq, müqayisəli şəkildə sosial-fəlsəfi baxımdan öyrənilmişdir.
- mövcud müasir baxışlardan çıxış etməklə elita - «hakim sinif» anlayışlarının ümumi, daha çox isə fərqli cəhətləri hərtərəfli təhlil edilmiş, elita-şəxsiyyət dixotomiyası yeni cəmiyyət tipi kimi verilmişdir;
- elitologiya və elita haqqında bəzi konsepsiyalar təhlil edilmiş, onların müqayisəli şərhləri verilmiş, inkişaf etmiş ölkələr timsalında elitaların müasir vəziyyəti göstərilmişdir.
- demokratik cəmiyyət və elitarlıq prinsiplərinin mahiyyəti, müasirlik, sosiallıq aspektində elitar rolların təzahür aspektlərinə nəzər yetirilmişdir;
- ilk dəfə olaraq müstəqil Azərbaycan fəlsəfə elmində milli elitanın müasir mənşəyi, müasir tarixi inkişaf mərhələləri və perspektivləri sosial-fəlsəfi mətndə araşdırılmış, təklif və tövsiyyələr verilmişdir.

**Tədqiqatın metodologiyası və ümumi metodikası.** Tədqiqatın metodoloji əsasını fəlsəfə, sosiologiya, tarix və klassiklərin əsərləri təşkil edir. Dissertasiyada mövcud müasir sosial-siyasi fəlsəfi ədəbiyyata, xüsusilə, müasir Azərbaycan və müasir xarici ölkə ictimaiyyətşünaslarının əsərlərinə müraciət edilir. Mövzu ilə əlaqədar olan tədqiqat işləri işin metodologiyası və metodikasında mühüm rol oynamışdır. Cəmiyyətin və ictimai şüurun qloballaşmasını öyrənərkən abstraktdan konkretə, xüsusidən ümumiyə kimi ümummetodlardan, eləcədə fəlsəfi və sosioloji ədəbiyyatda qəbul edilmiş xüsusi metodlardan istifadə edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** onun məqsəd və vəzifələri, eləcə də elmi yeniliyi ilə sıx surətdə əlaqədardır. Dissertasiyanın materialları və müddəaları gələcək elmi işlərdə istifadə oluna bilər. Tədqi-

qat işindən çıxarılan nəticələr, ideya və nəzəri müddəalar elita və xalq probleminin dərindən öyrənilməsi, təbliğat və tədrisi sahəsində əhəmiyyətlidir. Dissertasiyanın başlıca ideyası insan xalq, şəxsiyyət və elitanın qarşılıqlı əlaqəsi və inkişafı məsələsidir. Elə buna görə də dissertasiyanın materiallarından orta məktəb, bakalavr, magistratura və doktorantura təhsil sistemlərində istifadə oluna bilər. Bununla bərabər tədqiqatın materialları müasir elita və xalq probleminin daha geniş öyrənilməsində yardımçı vasitə olacaqdır. Tədqiqatın materiallarından «fəlsəfə, «sosiologiya», «kulturologiya» «politologiya» və s. fənnlərin tədrisində, habelə, elmi biliklərin populyar şəkildə öyrənilməsi işində də istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun «Qloballaşma və informasiya cəmiyyətinin fəlsəfi problemləri» şöbəsində yerinə yetirilmişdir. Müəllif dissertasiyanın əsas materiallarını elmi konfrans və seminarlarında öz əksini tapmışdır.

Dissertasiya iki fəsil, altı yarımfəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, işin məqsəd və vəzifələri aydınlaşdırılır, elmi yeniliyi göstərilir, işlənmə dərəcəsi verilir, obyekti və predmeti qeyd olunur, problemin nəzəri, elmi metodoloji və praktik əhəmiyyəti açıqlanır, nəticədə təklif və tövsiyyələr verilir.

Dissertasiyanin birinci fəsli **"XX əsrin sonu XXI əsrin əvvəlində xalq və elita münasibətlərinə fəlsəfi baxiş"** adlanır. Bu fəslin "Xalq və elita anlayışlarına əsas nəzəri yanaşmalar" adlanan birinci yarımfəslində müasir elm nümayəndələrinin problemə dair baxışları ətraflı təhlil edilərək, sosial – fəlsəfi aspektdə öyrənilmişdir. Sosial fəlsəfi, sosioloji və politoloji konsepsiyalara görə akademik Ramiz Mehdiyev məntiqində «Elita dövlətin mədəni və sosial-iqtisadi siyasətini işləyib hazırlayan və həyata keçirən üstün ictimai qruplardır. Elita istənilən tipli sosiumun fəaliyyəti üçün zəruri və həyati əhəmiyyətli struktur elementidir. Hələ 1823-cü ildə buraxılmış Oksford lüğətində «elita» termini yüksək əyanlar, «seçmə» insanlar kateqoriyalarının tərifi kimi işlədilmişdir».[1] Belə ki, elita nəzəriyyələri - cəmiyyətin imtiyazlı təbəqələrinin (elitaların) müstəsna vəzifəsi sosial-siyasi və intellektual fəallığı və digər adamların (kütlələrin) passivliyi haqqında nəzəriyyələrdir. Yəni, bu tədqiqatda elita və xalq mövzusu məhz elita nəzəriyyələri əsasında işıqlandırılmışdır.

Müəllif göstərir ki, hər bir cəmiyyətin sosial strukturunun zəruri tərkib

[1] Mehdiyev R. Azərbaycan – 2003-2005. Zaman haqqında düşünərkən. Bakı. 2009, s.43

hissəsini imtiyazlı təbəqə və ya təbəqələr təşkil edir. Həmin təbəqə idarəçilik funksiyası ilə yanaşı, elmin və nəzəriyyənin inkişafını təmin və təşkil edən yaradıcı funksiyanı da yerinə yetirirlər. Deməli, yaradıcılıq funksiyası da məhz elitar təbəqəyə aiddir. Cəmiyyətin ən müxtəlif sosial qrupları məhz bu yaradıcılıq funksiyalarını sosial-ictimai həyatda yaşadan təbəqənin arxasınca getməklə reallaşdırırlar. İşdə elitar nəzəriyyələrin əsasını qoyan Platon nəzəriyyəsində cəmiyyətin üç təbəqəyə bölününməsidə göstərilir: Platona görə birinci, hakimlərdir, arxontlardır. Ləyaqət, müdriklik onlara xasdır. Ona görə də onlar filosoflardır. İkinci, hərbçilər - ləyaqətləri, igidlik və vəzifələri arxonta xidmət etmək, onlara aşağı təbəqəni idarə etməyə kömək etmək, dövləti xarici düşmənlərdən qorumaqdır. Üçüncü, cəmiyyətin maddi təminatına qayğı göstərənlərdir. Bunlar əkinçilər, sənətkarlar, sənayeçilər, tacirlər və başqaları hesab olunur. Onlar tamamilə hakimlərə tabe olmalıdırlar. İki yüksək təbəqə öz vəzifəsini müəyyən səviyyədə yerinə yetirmək üçün xüsusi şəraitdə yaşamalıdır. Yəni, Platon ideal, mükəmməl, ən yaxşı dövlətdə olan üç təbəqəni: filosof-hökmdarları, əsgərləri – dövləti qoruyanları, istehsalçıları – və onlar arasında olan əmək bölgüsünü əsas hesab edirdi.

Sonradan Karleyl, Nitsşe və başqaları da elita nəzəriyyələrini inkişaf etdirmişlər. Bütöv mükəmməl sistem olaraq elitar nəzəriyyə XX əsrdə formalaşmışdır. Həmin nəzəriyyəni inkişaf etdirən alimlər içərisində Pareto, Moska və Mixeli işdə xüsusi olaraq qeyd edilir.

Bir sıra politoloqlar (həm marksist, həm də qeyri-marksist) «elita» termininin qeyri-elmi termin olduğunu iddia etmişlər. Müəllifə görə, məsələyə həmin nəzəriyyələrdə birtərəfli yanaşıldığı üçün, belə baxışlar düzgün qəbul edilə bilməz, bu anlayış ictimai elmlərin obyektidir, ictimai-siyasi, sosial termindir.

İşdə açıqlanır ki, xalq kütlələri və elita tarixi prosesin bir-biri ilə qırılmaz əlaqələri olan iki qütbünü təşkil edir. Tarixi prosesin əsasında cəmiyyəti təşkil edən təbəqələrin hərəkət fəaliyyətinin dayandığı məlumdur. Bu, həm də bir-birini əvəz edən nəsillərin gördüyü fəaliyyətin nəticəsidir, eyni zamanda bu prosesdə öz cəhdləri, ümidləri və səyləri olan çoxsaylı insanlar iştirak edirlər. Bu baxımdan Akademik R. Mehdiyev söyləyir: “Ona görə də milli siyasi elitanın ölkə iqtisadiyyatını daha çoxsahəli əsasda qurmaq, onu yeni inkişaf mənbələri və imkanları ilə təmin etmək niyyəti tamamilə əsaslı və aktualdır. Ötən yüzilliyin axırlarında Asiya və Latın Amerikasının bir sıra ölkələrində meydana çıxan problemlər göstərir ki, indi təhsil, elm və texnoloji innovasiyalar tərəfindən güclü yardım olmadan, ancaq xammal bazası hesabına sənayenin yüksəlişi imkanları tükənmişdir. Odur ki, Azərbaycan gənclərinin intellektual potensialını genişləndirmək məqsədilə dövlət təhsil proqramlarının sayını artırmaq və keyfiyyətini daim təkmilləşdirmək son dərəcə vacibdir. Ölkəni real surətdə və qısa müddətdə modernləşməyə, onun sənaye dövlətləri

birliyinə daxil olmasını təmin etməyə məhz bu imkan verəcəkdir”.[1] Buna görə də bəşər tarixinin dərk edilməsi, bir tərəfdən, böyük insan kütlələrini, bütöv xalqları fəaliyyətə sövq edən qüvvələrin, digər tərəfdən, hadisələrə başçılıq edən bu və ya digər tarixi xadimlərin həmin prosesə təsirinin xarakterini və dərəcəsini təhlil etməyi zərurət kimi ortaya çıxarır.

Elita hər zaman xalqla bərabər bəşəriyyətin inkişaf tarixində də mühüm rol oynamış və oynamaqdadır. Bu da təsadüfi deyildir. Çünki XIX əsrdən kapitalizmin inkişafında yeni yaranan sürət dalğası ümumxalq problemi ilə müqayisədə elita problemi haqqında elmi ədəbiyyat bir o qədər də geniş deyildir. Əslində bu anlayışın işlənmə tarixi də qədim deyildir. İlk dəfə XVIII əsrdə işlənən elita sözü öz həqiqi ifadəsini XIX əsrdə tapa bilmişdir. Elita sözü latınca «eligere» və fransızca «elite» sözündən olub, ən yaxşı, seçilmiş, əla mənalarını ifadə edir. Ancaq hələ də XVIII əsrdə bu termin əla keyfiyyətli malları ifadə etmək üçün işlədilirdi. XIX əsrdən başlayaraq artıq sosial ierarxiya sistemində ali sosial qruplara tətbiq edilən anlayış kimi elita sözünü işlədirdilər.Ümumiyyətlə isə bu terminin sosiologiya və politologiyada ən geniş yayılması dövrü XX əsrə aiddir. Elita - elitar nəzəriyyələrin mərkəzi anlayışıdır. Ona görə də xalq, elita məsələlərinin müasir sosial fəlsəfi tədqiqatlarda tədqiqinə müraciət edilməsi, məhz məsələnin mahiyyətinin daha geniş şəkildə təhlilinə zərurət yaratmaqla mövzunun aktuallığını şərtləndirir. Həmin ölkələrdə demokratiyanın əsas elementləri bunlardır: elitaların əməkdaşlığı ...... və s.[1.] Müəllif qeyd edir ki, elitistlər – yəni elitizm nəzəriyyəçiləri elitizmi haqqında təlim və nəzəriyyələr, burjua ideologiyası, kapitalizm ünsürü hesab ediblər. Elita nəzəriyyəsi isə - tarixdə xalq kütlələri və şəxsiyyətin rolunun idealist baxışlarının tərkib hissəsidir. Bu baxışlar iki formada çıxış edir: Birincisi, qəhrəman və kütlə haqqındakı nəzəriyyələrdə subyekt şəxsiyyətdir; ikinci – elita nəzəriyyələrində isə - tarixin subyekti qəhrəman deyil, bütünlükdə hakim sinif və onların başçıları elan edilir.

Müəllif göstərir ki, son nəticədə elitanın fəaliyyət çərçivəsini tarixi şərait müəyyən edir. Heç bir xadim, hətta ən görkəmli lider də bu çərçivədən kənara çıxa bilməz. Deməli ictimai gerçəklik və elitanın təsiredici rolu sosial inkişafda həlledici əhəmiyyət kəsb edir.

Tədqiqatda açıqlanır ki, ümumi surətdə qəbul edilmiş təsnifata görə məhsuldar elita ilə hakim-idarəedən elitanı bir-birindən fərqləndirmək lazımdır. Birinci qrupa millətin ən yaxşı nümayəndələri, xalqın inkişafı üçün imkanlar yaradan, ölkənin istehsal və intellektual qüvvələrinin daşıyıcıları daxildir. Məhsuldar elita işləməklə ictimai rifahı və sosial-iqtisadi inkişafı

---

[1] R.Ə.Mehdiyev. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. XXI YNE,Bakı, 2005, 463 səh.

təmin edir. Məhsuldar və idarəedən elitanın çulğaşması səviyyəsindən asılı olaraq dövlətin və cəmiyyətin idarə olunmasının keyfiyyətinə təsir edə bilir. Hakim elitanın tərkibi əksəriyyəti məhsuldar elitanın içərisindən çıxanlardan təşkil olunarsa cəmiyyətin düzgün idarəsi təmin olunar.

**Birinci fəslin ikinci yarımfəsli "Elita haqqında konsepsiyalar: tarix və müasirlik"adlanır.** Bu yarımfəsildə elita şəxsiyyət dixotomiyası formalaşmaqda olan yeni cəmiyyət tipi sosial fenomen olaraq araşdırılır. Şəxsiyyətin mahiyyəti, cəmiyyətdə yeri və rolu, fəallığı, mədəniyyəti, elmi, mədəni səviyyəsi ilə bağlı problemlər həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Dissertasiyada qeyd olunur ki, elita-şəxsiyyət fenomeninin çoxölçülülüyü ona müxtəlif elmlər və alimlər tərəfindən verilən təriflərdə də öz əksini tapmışdır. Belə ki, şəxsiyyətin fəaliyyətində, onun fəlsəfi anlamında aşağıdakı cəhətlər əsas rol oynayır: Təbiətin, cəmiyyətin və insan həyatının təkamülündə şəxsiyyətin yerini alması; şəxsiyyət probleminin fənlərarası obyekt statusunu kəsb etməsi; hər bir konkret tarixi mərhələdə şəxsiyyətin formalaşma məsələlərini və hər dövrün dünyagörüşü səviyyəsindən, təfəkkür üslubundan, elmdə və mədəniyyətdə əsas yer tutan standartlar və dəyərlər sistemindən asılılığı; insanı bir obyekt kimi araşdıran biogenetik, sosiogenetik və personogenetik tədqiqatlarda onun fərd, fərdiyyət və şəxsiyyət kimi təzahürləri, həmçinin təbiətdə və cəmiyyətdə şəxsiyyətin inkişafı qanunauyğunluqlarının tədqiq olunması; şəxsiyyətin inkişafına məqsədyönlü, idarəedici və tənzimləyici təsirin elmi cəhətdən əsaslandırılması və s.

İşdə həmçinin göstərilir ki, xalq kütlələrini tarixi inkişafın həlledici qüvvəsi hesab etmək tarixdə şəxsiyyətin rolunun inkar edilməsi və ya azaldılması demək deyildir, əksinə xalq kütlələri tarixi hadisələrdə və hərəkatlarda nə qədər fəal iştirak edirsə, həmin hərəkatlara rəhbərlik məsələsi, prosesdə fundamental prinsiplərin müəyyənləşdirilməsi rəhbərlərin, siyasi partiyaların, daha dəqiq desək, siyasi elitanın rolu məsələsi bir o qədər vacib şəkildə qarşıya çıxır. Birinci fəslin üçüncü yarımfəsli "Şəxsiyyətlərin tipologiyasında elita yaradıcı amil kimi" adlanır. Bu yarımfəsildə qeyd olunur ki, şəxsiyyət problemi son əsrlərin ən ciddi tədqiqat problemi kimi meydana çıxmış və müasir sosial fəlsəfənin aktual mövzusuna çevrilmişdir. Bu problem cəmiyyətin, təbiətin, eyni zamanda elmi-fəlsəfi təfəkkürün, müasir axtarışlarının əsası sayılır. Dünyanın dərki, bəşər cəmiyyətinin inkişafı və idarə olunması, tarixi sivilizasiya məsələləri məhz şəxsiyyətlə, onun fiziki və intellektual təkamülü ilə sıx bağlıdır. Ona görə də şəxsiyyət probleminin öyrənilməsi olduqca əhəmiyyətlidir. Bu gün şəxsiyyət fenomeni - dünya, şəxsiyyət, cəmiyyət-şəxsiyyət, təbiət-şəxsiyyət, şəxsiyyət-şəxsiyyət münasibətləri prizmasından müxtəlif elmi istiqamətlərdə tədqiq olunur.

«Fərd», «fərdiyyət», «şəxsiyyət» və "elita" anlayışlarının sosial-fəlsəfi təhlilində hər şeydən əvvəl aşağıdakı metodoloji prinsipin rəhbər

tutulması işdə belə göstərilir: onların hər biri və bütövlükdə hamısı insanın cəmiyyətdə və ümumiyyətlə dünyada varlığının konkret üsulları və yaxud formalarıdır.

Müəllif qeyd edir ki, insan çoxtərəfli, çoxölçülü və çoxkeyfiyyətli fenomendir. Onu ictimai münasibətlərin məhsulu kimi, təbii-bioloji mövcudat kimi, ictimai-tarixi fəaliyyətin və mədəniyyətin subyekti kimi və nəhayət öz həyatının yaradıcısı kimi də təhlil etmək olar. Həmin müxtəlif aspektlər müvafiq olaraq «insan», «fərd», «fərdiyyət», «şəxsiyyət» və “elita” anlayışları vasitəsilə ifadə olunur.

Deməli, şəxsiyyət və bu aspektdə “elit şəxsiyyət” tarixdə mühüm rol oynamağa qadir olandır. Müəllif göstərir ki, şəxsiyyət problemi ən əvvəl insanın dünyada, cəmiyyətdə tutduğu yeri, problemi ilə bağlı məsələdir. Qədim yunan fəlsəfəsi üçün icma və ya polisdən kənarda şəxsiyyət bütöv orqanizmdən ayrılmış bioloji orqanizm kimi qeyri-real sayılırdı. Lakin, artıq elə antik dövrdə insanın real davranışı ilə onun «mahiyyəti», bu mahiyyəti insanın necə görməsi, dərk etməsi və bununla bağlı günah və məsuliyyət motivlərinin uyğun gəlməməsi problemi yaranmışdı. Tədqiqatda göstərilir ki, Azərbaycan fəlsəfəsində, ədəbi-estetik fikrində şəxsiyyət problemi onun tipologiyasında elitanın elitanın rolu müxtəlif formalarda, ayrı-ayrı sənətkarların yaradıcılığında, ədəbi məktəb və cərəyanlarda, ədəbi metod və fərdi yaradıcılıqda təzahür edən başlıca elmi-bədii xüsusiyyət kimi hər zaman öyrənilmişdir. Azərbaycan mifik təfəkkürünün folklor, tarixən yazıya alınmış “Oğuznamə”, «Kitabi-Dədə Qorqud» və başqa dastanların mifik və gerçək təsvirlərində – insan düşüncəsi, ənənədə və ədəbi idrakda formalaşan ideal obraz və surətlər humanist bəşəri duyğuların sistemləşməsinə kömək etmişdir.Akademik R.Mehdiyevə görə :”hər bir cəmiyyətdə elita müxtəlif olur.O, fərqlidir və elmi, siyasi, iqtisadi, ədəbi-bədii,hakim, inzibati, müxalif (yəni əks elita) və s.elitaya bölünür. Elitanın konkret tipləri əvəzinə, mətbuatda çox vaxt “milli elita ” anlayışı işlədilir ki,bunlar da başqa-başqa şeylərdir... Deməli, milli elita cəmiyyətin ictimai şüura güclü təsir göstərərək, ictimai-siyasi prosesləri dəyişməyə qadir olan qüdrətli mənəvi qüvvəsidir. İşdə şəxsiyyətin tipologiyası və elitanın yaradıcı amil olması, formalaşması amili ictimai fenomen olaraq zaman baxımından xarakterizə edilir. Bu baxımdan aşağıdakı amillər vacib rola malikdir: a) şəxsiyyətin yetişməsi yalnız cəmiyyətin tələbatı ilə deyil, həmçinin vaxtı çatmış tarixi vəzifələri yerinə yetirmək üçün o anda cəmiyyətə, sinfə lazım olan adamların qabiliyyəti, istedadı və şəxsi keyfiyyətləri ilə də bağlıdır. Görkəmli tarixi şəxsiyyətlər - yeni tarixi şəraiti, ictimai inkişafın tələbatını hamıdan əvvəl, hamıdan aydın və hamıdan mükəmməl başa düşənlər və kütlələrin hərəkatına başçılıq edənlərdir; b) Şəxsiyyətin mahiyyəti mövcud

sosial mühitin, ictimai münasibətlərin bir növ personifikasiyası deməkdir. Digər tərəfdən hər hansı konkret şəxsiyyət fərdi formada özünün ictimai mahiyyətini ifadə edə bilər. Həmin forma onun müstəqil fəaliyyət subyekti kimi varlığının ifadə üsulunu ifadə etməklə konkret şəxsiyyətin mühüm səciyyəsini təşkil edir; c) Şəxsiyyət ilə sosial mühit sadəcə qarşılıqlı əlaqədə olmayıb, həm də qarşılıqlı surətdə biri digərini şərtləndirir. Ümumiyytlə, insanın şəxsi keyfiyyətlərinin formalaşması, onun fərdi mənlik şüurunun inkişafı ilə sıx bağlıdır. Sonuncuya görə mövcud sosial şərait təsir göstərir. Çünki sözügedən proses təkcə fərdin cəmiyyətdə tutduğu yerdən deyil, həm də onun buradakı öz vəziyyətinə bəslədiyi fərdi münasibətdən asılıdır. Buna görə də eyni bir sosial mühitdə müxtəlif şəxsiyyət tipləri mövcud ola bilər. d) Şəxsiyyətlər təkcə öz tiplərinə görə deyil, həm də dövrə görə fərqlənirlər. Bu onların həm fəaliyyətinə, həm də funksiyasına aid olur. İbtidai icma cəmiyyətində ayrıca insan icmaya münasibətdə müstəqil deyildi. Yalnız ictimai fəaliyyətin mürəkkəbləşməsi və ayrılması şəxsiyyətin müstəqilliyinə ilkin şərait yaratdı. Lakin bu, dərin və ziddiyyətli bir prosesdir. Tənhalaşmanın yüksək nöqtəyə çatdığı bir sıra qərb ölkələrində bir tərəfdən şəxsiyyət ən yüksək sosial sərvət hesab olunur, digər tərəfdən isə o xüsusi mülkiyyətə və «əşya» münasibətlərinə tabe edilir. Gah aləmdən təcrid olunmuş özünütəhlildə, gah da irrasional, daxili-hiss başlanğıcda dayaq axtaran bir sıra qərb cəmiyyətlərinin özünütəcridinin dərk edilməsi müasir fəlsəfi cərəyanların da (ekzistensializm, personalizm) və sosiologiyasında («kütləvi cəmiyyət» nəzəriyyəsi və s.) öz əksini tapmışdır.[1]

Yuxarıda qeyd etdiyimiz kimi şəxsiyyət tarix, fəlsəfə, sosiologiya, etika, ümumi və sosial psixologiya, həmçinin, digər elmlər sahəsində işlənən anlayış hesab olunur. İctimai elmlərdə şəxsiyyət ictimai-tarixi inkişafın məhsulu, ətraf gerçəkliyi dərk edərək dəyişdirən, müəyyən sosial funksiyanı yerinə yetirən şüura və özünüdərketmə qabiliyyətinə malik konkret canlı insan kimi nəzərdə tutulur. Hər bir sosial-siyasi sistemin insanlara təhsil, tərbiyə vermək və onları rəhbər sosial statusa təyin etmək mexanizmi vardır ki, bu da əlbəttə, təsadüfi olaraq sistemdən kənara çıxmaq hallarını istisna etmir.İşdə açıqlanır ki, müasir cəmiyyətlərdə bu sahədə sosial rəqabət qanunları fəaliyyət göstərir. Demokratik cəmiyyət xalqa lazım olan keyfiyyətlərə malik kadrlara təhsil və tərbiyə verir və onları elə vəzifələrə irəli çəkir ki, burada onlar öz qabiliyyətlərinə və hazırlıqlarına görə cəmiyyətə daha çox fayda verə bilərlər. Bu zaman həqiqi demokratiya prinsipləri, istedadların yarışı prinsipləri sosial fəaliyyət və sosial məqsəd mexanizmi əldə etmiş olur. Məhz bu göstərilən hallarda müəllif şəxsiyyətin tipologiyasında elitanın yaradıcı amil amil olmasını göstərir. İkinci fəsil **“Müasir**

[1] R.Mehdiyev. Yeni dünya nizamı və milli ideya.B.2017,Şərq-Qərb nəşr. Səh.30-31.

**Azərbaycan cəmiyyətində elitaların rolunun sosial-fəlsəfi təhlili”** adlanır. Bu fəslin “Siyasi elita: formalaşma xüsusiyyətləri və funksiyaları” adlanan birinci yarımfəslində elita haqqında həm nəzəri, həm də müasir Azərbaycanın inkişaf gerçəkliyi kontekstində olan problemlərdən bəhs edilir. Müəllif bir daha yada salır ki, elita dedikdə cəmiyyətin idarəçilik funksiyasını yerinə yetirərək, elmi və mədəniyyəti inkişaf etdirən ali, imtiyazlı təbəqəsi başa düşülür. Mütəfəkkirlər elita haqqında danışarkən fəal, kompetent və təsiretmə qabiliyyətinə malik olan, o qədər də böyük olmayan insan qruplarını nəzərdə tuturdular. Həmin qruplar çoxsaylı sosial strukturun və eləcədə bütövlükdə cəmiyyətin həyatı və davranışını müəyyən etməyə qadir olanları nəzərdə tuturdu. Elə həmin qruplardan çıxan şəxsiyyətlər ideyalar «yaradırlar», ictimai münasibətlərin xarakterini dəyişirlər, yeni imkanlar formalaşdırırlar, necə deyərlər yeni tarix «yazırlar». Buna görə də müəllif fransız psixoloqu Q.Lebonun fikirlərini xatırladaraq, yazır: «Sivilizasiyaların öyrənilməsi göstərir ki, həqiqətən bütün qazanılmış uğurlar üçün biz bir ovuc seçilmişlərə borcluyuq. Onların yetişməsi və inkişafı üçün şərait yaratmaq bütün bəşəriyyətin istifadə edəcəyi tərəqqinin çiçəklənməsinə şərait yaratmaq deməkdir».[1]

Dissertana vurğulayır ki, zaman keçdikcə tədqiqatçılar elitanın müxtəlif növlərini - siyasi, iqtisadi, mədəni, hərbi və s. təhlil etməyə başlamışlar. Onlar arasında xüsusi yer siyasi elitaya ayrılmışdır ki, bu heç də təsadüfi deyildir. Siyasi elita dedikdə sosial-siyasi qərarlar qəbul edən, cəmiyyətin ictimai həyatında əhəmiyyətli yer tutan və buna görə də imtiyazlı statusa malik olan adamlar qrupu nəzərdə tutulur.

Siyasi elita - dövlət hakimiyyəti orqanlarında, siyasi partiyalarda, ictimai təşkilatlarda rəhbər mövqe tutan, ölkədə siyasətin işlənib hazırlanması və həyata keçirilməsində mühüm rol oynayan adamların nisbətən azlıqda qalan hissəsi, necə deyərlər idarə edən sinif hesab olunur.

İşdə göstərilir ki, siyasi elitanın mövcudluğu aşağıdakı faktorlarla şərtlənir: 1) İnsanların psixoloji və sosial xüsusiyyətləri, onların eyni olmayan qabiliyyətləri, imkanları və siyasətdə iştirak etmək arzusu ilə; 2) Əmək bölgüsü qanunu ilə, bu isə idarəçilikdə peşəkarlığı, müəyyən ixtisaslaşmanı tələb edir; 3) İdarəçilik əməyinin yüksək sosial əhəmiyyəti və onun müvafiq stimullaşdırılması ilə; 4) İdarəçilik fəaliyyətinin geniş imkanlarından istifadə etməklə sosial imtiyazların əldə edilməsi ilə (çünki onlar dəyərlərin bölgüsü ilə bilavasitə əlaqədardır); 5) Siyasi rəhbərlər üzərində hərtərəfli nəzarətin həyata keçirilməsinin praktiki olaraq qeyri mümkünlüyü ilə; 6) Başlıca maraqları adətən siyasətdən kənarda olan əhalinin geniş

---

[1] Лебон Г. Психолгия народов и масс. СПб: Макет, 1995, 320 с.

kütlələrinin siyasi passivliyi ilə.[1]

Elita problemi olduqca mürəkkəb və demək olar ki, daim zamana, sistemə uyğun dəyişən həm ənənəvi, həm də yeni problemdir. Milli elitaların formalaşması spesifik xüsusiyyətlərə malikdir. Burada ictimai həyatın sosial-siyasi şərtləri mühüm faktora malikdir. Azərbaycan elitasına gəldikdə isə müəllif qeyd edir ki, bu, sözün həqiqi mənasında daha mürəkkəb tarixi şəraitdə formalaşmışdır. XIX əsrdə Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycanın Şimalı Rus İmperiyasının, Cənubu isə İranın tərkibinə daxil oldu, daha doğrusu Azərbaycan əraziləri işğal altına düşdü. Ona görə də Azərbaycan elitası Rusiyanın hakim strukturlarının, sonra isə sovet imperiyası şəraitində formalaşdığından spesifik xüsusiyyətlərə malik olmuşdur. Digər mühüm cəhət isə elitanın formalaşmasının vətəndaş cəmiyyətinin inkişafı ilə müşayiət olunmaması olmuşdur. Azərbaycan elitası formalaşdıqdan sonra repressiyaların sayəsində onların demək olar qabaqcıl hissəsi, «qaymağı» məhv edilmişdi. Bura müxtəlif sahələrin adamları daxil idi. Repressiyalar sayəsində məhv edilmiş Azərbaycan elitasının tərkibinə daxil olan partiya və dövlət xadimlərindən tutmuş, şair, yazıçı, alim - tədqiqatçı və ruhanilərin, hətta onların ailə üzvlərinin sürgünü Azərbaycan elitar tarixi üçün böyük itki hesab olunmalıdır.

Milli elitanın formalaşması sovet dövrünə – Ulu Öndər Heydər Əliyevin birinci hakimiyyət illərinə təsadüf edir. Məhz bu dövrdə siyasi çətinliklərə baxmayaraq Ulu Öndər Heydər Əliyev Azərbaycanda təsərrüfat - iqtisadi, intellektual, hərbi və siyasi elitanın formalaşmasının bünövrəsinin yaranmasına şərait yaratdı.

Müasir dövrdə Azəbaycan siyasi elitasının formalaşması da mürəkkəb proses kimi ən çətin problemlərdən biri idi. Bu çətin, şərəfli vəzifənin öhdəsindən xüsusi idarəçilik, liderlik qabiliyyəti, istedadı və zəkası ilə fərqlənən yalnız Ulu Öndər Heydər Əliyev fenomeni gələ bilərdi.Ümummilli lider Heydər Əliyev siyasi elitanın formalaşdırılmasını milli ideologiya azərbaycançılıq ideologiyası ilə vəhdətdə həyata keçirirdi. Müəllif göstəriri ki, «Azərbaycançılıq ideyalarına sadiq olub Azərbaycanın mənafeyinə xidmət edən elita tam şəkildə özünün formalaşma prosesini müstəqillik zəminində həyata keçirə bilərdi. Heydər Əliyevin ətrafında birləşən qüvvələrin fəaliyyəti sayəsində milli-siyasi elita formalaşmağa başladı. Müstəqil dövlətçiliyimizin bünövrəsinin möhkəmləndirildiyi Heydər Əliyev dövründə milli-siyasi elita Heydər Əliyev ənənələri üzərində, Heydər Əliyevin yaratdığı azərbaycançılıq ideyalarına söykənir»[2]. Akademik R.Mehdiyevə görə, ”siyasi elitanın olması müasir

---

[1] Охотский Е.В. Политическа элита. М.: Луч, 1993, 91 с.
[2] Yusifov M. Heydər Əliyev və Azərbaycançılıq ideologiyası. Bakı, Azərbaycan, 2004, s.174

Azərbaycan cəmiyyəti üçün labüd siyasi atributdur, çünki siyasətin funksiyası avtomatik şəkildə həyata keçirilə bilməz."[1]

İşdə vurğulanır ki, Azərbaycan öz tarixi inkişafının yeni fazasına daxil olmuşdur, milli elitarizm nəzəriyyəsinin yeni konsepsiyasını xarici zərurət deyil, daxili zərurət, yalnız milli maraqlar və ictimai sifariş formalaşdırır. Bu konsepsiyanın mahiyyəti varislik və innovasiyalılıqdan ibarətdir. Bu iki tərkib hissə əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin səmərəli şəkildə reallaşdırdığı siyasətin mahiyyətini müəyyən edir.

Müəllif ikinci fəslin "Müxtəlif sosial sistemlərdə elitaların oynadığı rolların tədqiqi" adlanan ikinci yarımfəslində göstərir ki, cəmiyyətdə elitaların rol dəyişmələri həm də sosial hadisədir. Bu yarımfəsildə elitaların nəzəri bölgüsü problemə ən mühüm nəzəri yanaşmaları müqayisə etməklə, ətraflı şəkildə aparılır.

Sosial həyatda elita idarəçilik sənətinə yiyələndiyindən və özünün hakim rolunu ideoloji cəhətdən əsaslandırmaq qabiliyyəti olduğundan bütün proseslərin ictimai-siyasi məsuliyyətini yaşayır. Cəmiyyətdə hakimiyyəti həyata keçirmək əksər halda hakim sinfin istehsal üsulundan asılıdır. Eyni zamanda cəmiyyətdə həmişə elə siyasi qüvvələr olur ki, hakimiyyətə can atır, bunun üçün isə onlar seçki sistemindən istifadə edir.Demokratik tendensiyanın üstünlüyü şəraitində hakim sinifin tərkibi bacarıqlı aşağı sinif üzvləri ilə doldurulur. Bu isə onun dinamizmini, həyat qabiliyyətini, enerjisini müəyyən edir. Moskanın siyasi simpatiyası cəmiyyətdə hər iki tendensiyanın bir-birinin tarazlaşmasına meyli olması ilə fərqlənmişdir.

Bu yarımfəsildə elitaya çoxsaylı nəzəri yanaşmalardan çıxış edərək ümumiləşdirilmiş belə tərifi vermək olar: Hakim elita - cəmiyyətdə yüksək mövqe tutan, maksimum hakimiyyətə və cəmiyyətə təsir imkanına malik sosial qruplardır.

İşdə vurğulanır ki, Azərbaycanda cəmiyyətin ictimai həyatının bütün sahələrində demokratiyanın rolunun artması, sosial dövlətin formalaşması, hakimiyyətin, mülkiyyətin, sosial faktorların, plüralizmin, sosial dialoqun inkişafı və bütövlükdə sosial transformasiyası ilə səciyyələnmişdir.

Həmçinin, müəllif göstərir ki, müasir dünyanın bəzi dini avtoritar rejimlərində elitaların yerdəyişməsi dünya siyasətində elita strukturlarına münasibətdə də yeni düşüncə formalarını yaratmışdır. Beləliklə, müasir elita qloballaşmış dünyada, iqtisadi-siyasi hakimiyyətə, kapitala maddi resurslara nəzarət etmək imkanına malik olur. Bu tendensiya və sosial mexanizm elitanın fərqləndirici şüurunun möhkəmlənməsini şərtləndirir.

Müəllif fikrini ümumiləşdirərək qeyd edir ki, dövlət və hüquq elita tərəfindən zərurət nəticəsində yaradılmışdır. Elita hakimiyyəti idarəçilik

---

[1] R. Mehdiyev.Yeni dünya nizamı və milli ideya. B.2017, səh. 31.

fəaliyyəti ilə sıx surətdə əlaqədardır. Seçilmişlər özü də elitanı təşkil edir. Dövlətə və xalqa isə o siyasi elita zəruridir ki, o dövləti yaradıb qoruyub saxlaya bilsin.

İkinsi fəslin “Azərbaycanda milli elitanın formalaşma prosesi” adlanan üçüncü yarımfəsildə qeyd edilir ki, Azərbaycan milli elitası XX əsrin son illəri və XXI əsrin əvvəllərində daha böyük inkişaf yolu keçmişdir.

Milli elitanın rolu dövlət müstəqilliyini, mədəni-tarixi dəyərləri, cəmiyyətin milli identikliyini qoruyub saxlamaqdan ibarətdir. Lakin bütün bunlar yalnız o halda mümkündür ki, milli elita öz millətini, onun dünyada inkişaf mərhələsinə uyğun olan iqtisadi, sosial və hərbi-siyasi mövqelərilə təmin edə bilsin. Dissertant işdə Qərb, MDB və Azərbaycan tədqiqatçılarıın tarixi-məntiqi yanaşma əsasında, ümumilikdə, elitizmin və xüsusən, siyasi elitanın təkamülünü tədqiq edərək, elita və demokratiyanın qarşılıqlı əlaqədə olduğu, onun tək siyasi yox, həm də elmi (intellektual), iqtisadi, bədii-ədəbi, siyasi, hakim, inzibati, müxalifət elitasına bölündüyü qənaətindədir. Elitanın bu və ya digər tipi ictimai prosesə təsirinə görə ümummilli elita səviyyəsinə yüksələ bilər. Milli elita ictimai-siyasi proseslərin gedişini dəyişdirməyə qadir olan, ictimai şüura təsir edə bilən cəmiyyətin güclü mənəvi qüvvəsidir.

Müəllif göstərir ki, milli Azərbaycan elitasının formalaşması müəyyən inkişaf mərhələlərindən keçmişdir. Həqiqətən də analoji olaraq demokratik dövlətlərin siyasi elitası üçün xarakterik olan cizgiləri əldə etməkdən ötəri müəllifə görə, hələ bir sıra mərhələləri də keçməli olacaqdır.İşdə vurğulanır ki, Azərbaycan elitasının formalaşması bir sıra mühüm tarixi xüsusiyyətlərə malik olmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan milli elitasının formalaşması fövqəladə dərəcədə mürəkkəb tarixi şəraitdə baş vermişdir ki, bu da həmin prosesin fərqləndirici cəhətidir.

Doğrudan da müasir dünyanın sosiomədəni, siyasi proseslərinin elitanın rolunu və statusunu necə dəyişdirdiyini biz hər an hiss edirik. Daha çox müasir dünyanın real sosial gerçəkliklərinə hesablanmış bu tendensiya indi daha davamlı xarakter alır. Ümumiyyətlə, müəllif qeyd edir ki, siyasi elita və plüralizm mövzusu fəlsəfi təhlil nöqteyi-nəzərindən olduqca aktual və olduqca mürəkkəb mövzudur. Müəllif qeyd edir ki, Azərbaycanda milli elitanın formalaşması prosesi müasir mərhələdə yeni transformasiyalar şəraiti ilə yaddaqalandır. Müasir Azərbaycan milli elitasının formalaşması prosesi ölkə başçısı İlham Əliyevin birbaşa diqqətində və nəzarətində olan məsələlərdəndir. Milli elitanın formalaşması prosesinin bu mərhələsini neft kapitalının insan kapitalına çevrilməsi ideyası ilə də səciyyələndirmək olar. Belə ki, artıq ölkədə inkişaf edən müasir cəmiyyətin sosial, mədəni,iqtisadi, siyasi transformasiyalar tərəqqisi elə bir sosial-fəlsəfi zəmin yaratmışdır ki, idarəetmə pillələrinin hər səviyyəsinə gətirilən gənclik özünün intellektual bacarığı, çalışdığı sahənin bilik və imkanlarını yaxşı bilən, həmçinin mo-

dern təfəkkürlə bərabər cəmiyyətimizin ənənəvi qaydalarını, adət və ənənələrinin yüksək ehtramı ilə seçilən gənclərimizin irəli çəkilməsi ilə yaddaqalandır. Tədqiqatda ölkəmizdə keçirilən bir neçə mərhələli referendumlar, Konstitusiyamıza edilən əlavə və dəyişikliklər insan amilinin sosial tərəqqi və davamlı inkişaf konsepsiyası ilə əlaqələndirilməsi prinsiplərinə əsasən qurulduğu önə çəkilir. Həmçinin, ölkəmizdə gedən beynəlxalq miqyasda enerji layihələri regionda və ölkədaxili sosial-iqtisadi islahatlar, davamlı olaraq yeni iş yerlərinin açılması, idarəetmə strukturunun informasiya kommunikasiya əsaslarının möhkəmləndirilməsi bu istiqamətdə daha ağıllı, kreativ insanların irəli zərurəti araşdırılır.

Milli elitanın müasir transformasiyası ölkənin elm, bilik, təhsil, həmçinin ictimai-institusional əsaslarında yeni kadrların uğurla önə getməsinə təkan vermişdir. Bir tərəfdən irəli sürülən, önə çıxan yeni gənclik həm də patriotizmə yüksək hörməti, dünya qaydalarından, dünyanın inkişaf tendensiyalarını uğurla mənimsəyən elitar gənclik modellərini səciyyələndirmişdir. Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəslində Ümummilli Liderin davamçısı cənab İlham Əliyevin özünün məhz gənc yaşlarından müasir Azərbaycan Respublikasının prezidenti seçilməsi diqqətə gətirilir və bu hadisənin yeni elita dəyişikliklərində gənclərin önə çəkilməsi ilə istiqamətlənməsinə böyük şəraitin yaradılması amili olaraq qiymətləndirilir. Bununla yanaşı tədqiqat işində, Azərbaycan milli elitasının inkişafında əsas rol oynayan ölkə Prezidenti cənab İlham Əliyev haqqında Akademik Ramiz Mehdiyevin fikirlərinə də nəzər yetirilir. Akademik vurğulayır ki, "İlham Əliyev yeni dövrün siyasətçisidir və ...bütün lazımi keyfiyyətlərə malikdir. O, fəaliyyətində ardıcıl və praqmatikdir, rasional və səmimidir.Onu fərqləndirən cəhət odur ki, o. fəaliyyət dairəsi məhdud olan məmur deyil, əksinə, geniş baxışlara malik siyasətçidir. Onun üstünlüyü bundadır. Azərbaycana məhz belə siyasətçi gərəkdir."[1]

**Nəticədə** qeyd edilir ki, hazırki şəraitdə Azərbaycanın iqtisadi resurslarının, insan kapitalının sosial tərəqqi meyllərinin cəmiyyətin inkişafında önə çəkilməsi müasir elitanın da fəaliyyət prinsipində mühüm meyara çevrilmişdir. Tədqiq edilir ki, Xalq və elita münasibətlərinin müasir səviyyəsi, müasir sosial münasibətlər sistemi yeni modern təfəkkür tərzinin idarəetmə prinsipində bərqərar olmasına şərait yaradır. İnsanların tutduqları mövqelər, daşıdıqları vəzifələrə yeni baxış bucağında yanaşma meylləri pozitiv əsaslarla artır.

[1] Səs qəzeti,N 10, 22 oktyabr, səh.10

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı çap etdirdiyi elmi məqalələrində öz əksini tapmışdır.**


1. Yeni siyasi elita haqqında bir neçə söz // «Qloballaşma və Azərbaycan» II Respublika elmi-praktiki konfransının materialları // Bakı, 2002 s.143-145.
2. Qloballaşma və xalq-elita münasibətləri // «Qloballaşma və Azərbaycan mədəniyyəti» Elmi-konfrans Materialları, Bakı, 2004 s.362-367
3. Şəxsiyyətin tipologiyası // «Sosial-siyasi problemlər» III buraxılış, Bakı, 2005 s.396-401
4. Siyasi elitanın anlayış və funksiyaları haqqında // «Elmi axtarışlar» (Folklorşünaslıq: Filologiya, Fəlsəfə, Tarix, İncəsənət və Nəzəriyyə Aspektləri), XIV toplu, Bakı, «Səda», 2005 s.498-503.
5. Siyasi elita və mədəniyyət // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. "Mədəni müxtəliflik sosial-siyasi dəyər kimi" Kulturoloq-ların II milli forumu. Beynəlxalq elmi-praktik konfrans s.346-347.
6. Müasir Azərbaycan cəmiyyətinin inkişafında elita amili. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Mədəniyyət Dünyası XXIII Bakı-2012, s.113-117. s.113-117.
7. Politiçeskaə Glita Azerbaydjana i voprosı demokratizaüii obhestva (soüialğno-filosofskiy analiz). Naüionalğniy pedoqoqiçeskiy universitet imeni M.P. Drraqomanova. Ukrainsğka Akademiə Nauk, s.545-547.
8. Некоторые Вопросы Формирования Политической Элиты, Історıя Освıти, Науки I Технıки В Украıнı Матерıали XII Мıжнародноі конференцiі молодих учених та спецiлiстiв м.Киів, 19 травня 2017 р.Киів-2017
9. Elita və elita nəzəriyyələrinə fəlsəfi baxış. Elmi əsərlər № 2., AMEA Fəlsəfə İnstitutu., Bakı 2017 səh., 233 -236

**Абиева Л.Р.**

# НАРОД И ЭЛИТА В КОНЦЕ XX – НАЧАЛЕ XXI ВЕКА В АЗЕРБАЙДЖАНЕ: ДИНАМИКА ВЗАИМОДЕЙСТВИЯ

## РЕЗЮМЕ

Проблемы, порожденные взаимодействием народа и его элиты в современных глобализационных условиях требуют своего переосмысления.

**Первая глава.** Отношения между народ и элит в конце XX века: философский взгляд. Ведь именно элита - та высшая, привилегированная группа, которая осуществляет функцию управления обществом, развития его науки и культуры. Успешная модернизация азербайджанского общества во многом зависит от правильного формирования и использования ресурсов национальной элиты. В диссертационной работе впервые предпринята попытка комплексного изучения происхождения современной национальной элиты, этапов ее формирования и перспектив развития.

**Вторая глава.** Социально-философский анализ роли элит в современном азербайджанском обществе, показывается, что несмотря на все сложности, формирование современной национальной элиты было начато еще в советское время общенациональным лидером Гейдар Алиевым. Именно в эти годы были предприняты решительные шаги для формирования основ хозяйственно-экономической, интеллектуальной и военной элиты в Азербайджане. Проводилась постепенная азербайджанизация политической элиты. Но окончательное формирование национальной элиты стало возможным после обретения Азербайджаном государственной независимости. В 90-е годы прошлого столетия Г.Алиеву удалось мобилизовать всю имеющуюся элиту на борьбу ради восстановления государственной независимости, устранения управленческой анархии. Политико-административная элита прекрасно осознавала, что без привлечения талантливых, профессиональных кадров с новым мышлением решить предстоящих задач невозможно.

Сегодняшние задачи стоящие перед национальной элитой - это защита национальной и государственной целостности Азербайджана, углубление демократических процессов, укрепление гражданских ин-

ститутов, обеспечение перехода экономики на постиндустриальное развитие, сохранение и развитие национальной культуры.

Успешная модернизация невозможна без единства народа и его элиты. В работе также анализируются основы этого единства в Азербайджане, что является гарантом здорового развития общества. Одним их главных факторов достижения этого единства постоянное обновление и качественное улучшение национальной элиты.

В **Заключении** обощаются освновные положения диссертации, подводится итог исследования.

**Abiyeva L.R.**

# AT THE END OF THE 20th CENTURY AND AT THE BEGINNING OF THE 21st CENTURY NATION AND ELITE IN AZERBAIJAN: DYNAMICS OF THE INTERACTION

## SUMMARY

Problems caused by the interaction of people and the elite in contemporary globalization conditions require a rethinking. After all, the elite - is the highest, the privileged group, which performs the function of social management, development of its science and culture. Successful modernization of Azerbaijani society is largely dependent on the correct formation and use of resources of the national elite.

**The headline of the first chapter** this thesis was first attempted a comprehensive study of the origin of modern national elite stages of its formation and development prospects.

We argue that despite all the difficulties, the formation of modern national elite was begun in Soviet times, the national leader Heydar Aliyev. These years have been taken decisive steps to form the basis of economic, intellectual and military elite in Azerbaijan. Carried out gradually azerbaijanization political elite. But the final formation of the national elite has become possible after Azerbaijan gained its independence. In the 90s of last century, Heydar Aliyev was able to mobilize all available elite to fight for the restoration of state independence, elimination of administrative anarchy. Politico-administrative elite was well aware that without the involvement of talented professionals with new ways of thinking to solve the challenges ahead is impossible.

**The second chapter** today the "smooth" and accurately update the national e scientific, cultural, economic and political, administrative elites associated with the activities of President Ilham Aliyev. The objectives of today's modernization policies require the deepening of this process.

Successful modernization is impossible without the unity of the nation and its elite. The work also analyzes the foundations of this unity in Azerbaijan, which is the guarantor of the healthy development of society. One of the main factors in achieving this unity, constant updating and improving the quality of the national elite.

In the “**Conclusion**” part of the dissertation, the main thesis of the research is generalized and studied investiginations are summarized.

Sifariş № 7. Tirajı 100 nüsxə

Azərbaycan Milli Elmlər Akademiyası
Geologiya və Geofizika İnstitutunun mətbəəsi.
Bakı, H.Cavid pr. 119, Tel.: 539-39-72

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ**

*На правах рукописи*

**АБИЕВА ЛЕЙЛА РАУФ кызы**

# НАРОД И ЭЛИТА В КОНЦЕ XX – НАЧАЛЕ XXI ВЕКА В АЗЕРБАЙДЖАНЕ: ДИНАМИКА ВЗАИМОДЕЙСТВИЯ

7207.01 – Социальная философия

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по философии

**БАКУ – 2018**